# Milli Məclisin komitə iclaslarında

Sentyabrın 12-də Milli Məclisin Aqrar siyasət komitəsinin 2025-ci ilin payız sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Tahir Rzayev gündəliyə 4 məsələnin daxil edildiyini bildirib.

Komitə sədri ilk olaraq 2025-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində Milli Məclisin Aqrar siyasət komitəsinin fəaliyyəti barədə məlumat verib. Bildirilib ki, ötən sessiyada 13 iclas keçirilib, 14 məsələyə baxılıb, o cümlədən "Aqrar sektorda sahibkarlığa dəstək: nəticələr və perspektivlər" mövzusunda ictimai dinləmə təşkil olunub.

Daha sonra Tahir Rzayev Aqrar siyasət komitəsinin 2025-ci il payız sessiyası üçün iş planının layihəsini təqdim edib. Bildirib ki, gələn sessiyada qanunvericilik təşəbbüsü əsasında təqdim olunan qanun layihələri müzakirə olunacaq, komitənin profilinə uyğun mövzularda dinləmələr keçiriləcək, vətəndaşlarla mütəmadi görüşlər təşkil ediləcək və aidiyyəti dövlət orqanları ilə əməkdaşlıq davam etdiriləcək.

Sonra gündəliyin üçüncü məsələsi - "Dabaq Xəstəliyinə Nəzarət üzrə Avropa Komissiyasının Nizamnaməsinə qoşulmaq haqqında" qanunun layihəsi ilə bağlı məlumat verilib. Bildirilib ki, preambula və 19 maddədən ibarət Nizamnaməyə qoşulmaq gələcəkdə Avropa çərçivəsində xəstəliyin qarşısının alınmasına, onun yayılmasının məhdudlaşdırılması üçün nəzarət tədbirlərinin gücləndirilməsinə şərait yaradacaq.

Gündəliyin sonuncu məsələsi - "Beynəlxalq ticarətdə müəyyən təhlükəli kimyəvi maddələr və pestisidlər üzrə qabaqcadan əsaslandırılmış razılıq proseduru haqqında Rotterdam Konvensiyası"na qoşulmaq barədə qanun layihəsi haqqında məlumat verilib. Komitə sədri Tahir Rzayev bildirib ki, sənəd dövlətlər arasında təhlükəli kimyəvi maddələrin və pestisidlərin idxalı və ixracı ilə bağlı məlumat mübadiləsini təmin etmək, onların istifadəsi nəticəsində yarana biləcək risklərin azaldılmasına nail olmaq və insan sağlamlığı ilə ətraf mühitin qorunmasını gücləndirmək məqsədini daşıyır.

Müzakirələr zamanı komitə sədrinin müavini Razi Nurullayev, üzvləri Eldar İbrahimov, Vüqar İsgəndərov, Novruzəli Aslanov, Cavanşir Paşazadə, Azər Badamov və Aydın Hüseynov çıxış edərək məsələlərlə bağlı fikirlərini söyləyiblər, təkliflərini irəli sürüblər.





Tədbirin sonunda ötən sessiyada görülmüş işlər məqbul hesab edilib, komitənin 2025-ci ilin payız sessiyası üçün iş planının layihəsi təsdiq olunub, qanun layihələri isə birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib.

* * *

Sentyabrın 12-də Milli Məclisin Mədəniyyət komitəsinin 2025-ci ilin payız sessiyasında ilk iclası keçirilib. İclası açan komitə sədri Polad Bülbüloğlu komitə üzvlərinə qarşıdakı sessiyadakı fəaliyyətlərində uğurlar arzulayıb və gündəliyə 2 məsələnin daxil edildiyini bildirib.

Komitə sədri əvvəlcə Mədəniyyət komitəsində 2025-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə görülən işlər barədə hesabatı müzakirəyə çıxarıb. Ötən dövrdə komitədə görülən işlər barədə məlumat verən Polad Bülbüloğlu qeyd edib ki, komitəyə vətəndaşlardan, idarə və təşkilatlardan daxil olan müraciətlərlə bağlı müvafiq tədbirlər görülüb. Bundan başqa, komitə sədri, komitə sədrinin müavini və komitə üzvləri vətəndaş qəbulları, seçicilərlə görüşlər keçiriblər, onların qaldırdıqları məsələlərin həlli istiqamətində lazımi işlər aparıblar.

Sonra Polad Bülbüloğlu Mədəniyyət komitəsinin 2025-ci ilin payız sessiyası üçün iş planının layihəsi barədə məlumat verib. O, diqqətə çatdırıb ki, sənəddə qanunvericilik təşəbbüsü qaydasında daxil olan qanun layihələrinə baxılması, müvafiq mövzular üzrə dinləmələrin təşkil olunması və digər məsələlər nəzərdə tutulub.

Fikir mübadiləsi şəraitində keçən müzakirələrdə komitə sədrinin müavini Günay Əfəndiyeva, komitə üzvləri Ülviyyə Həmzəyeva, Tənzilə Rüstəmxanlı, Əlibala Məhərrəmzadə və Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış ediblər. Onlar müzakirəyə çıxarılan sənədlərə münasibət bildiriblər, mədəniyyət sahəsinin bəzi aktual məsələləri ilə bağlı fikirlərini bölüşüblər, rəy və təkliflərini səsləndiriblər.

Sonda komitədə ötən sessiyada görülmüş işlər məqbul hesab edilib, komitənin qarşıdakı payız sessiyası üçün iş planı təsdiqlənib.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 13 sentyabr (№195).- S.2.